# Təhsil Problemləri İnstitutunun 2015-ci il nəşrləri

**2015-ci ildə Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasından və "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində fəaliyyət göstərmiş, 3 monoqrafiya, 25 dərslik və dərs vəsaiti, 6 tədris proqramı, 10 metodik vəsait və 154 jurnal məqaləsi ilə müəllimlərin maariflənməsi və inkişafına dəstək vermişdir. Bu sayımızdan başlayaraq həmin nəşrləri oxucularımıza təqdim edirik.**




**"Məktəbəqədər təhsilin müasir problemləri". Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 136 səh.**

*Müəlliflər: Laləzar Cəfərova, İlahə Qafarova.*
*Elmi redaktor: Ənvər Abbasov.*

Oxuculara təqdim olunan "Məktəbəqədər təhsilin müasir problemləri" adda kitab hazırkı dövrdə təhsil islahatından irəli gələn vəzifələr və məktəbəqədər təhsillə bağlı pedaqoji problemlərin şərhinə həsr olunmuşdur.

İlkin olaraq məktəbəqədər təhsilin yeni məzmunundan bəhs olunmuş, onun özünəməxsus xüsusiyyətləri və məktəbəqədər təhsilə inteqrativ yanaşmanın mahiyyəti açıqlanmışdır. Sonra məktəbəqədər təhsil prosesində istifadə olunan yeni pedaqoji texnologiyalardan bəhs edilmiş, kompüterdən istifadə, yeni məzmun üzrə məşğələlərin təşkili, qiymətləndirmə məsələləri şərh edilmişdir.

Kitabda məktəbəqədər təhsilin idarə olunması məsələləri də diqqət mərkəzində saxlanılmış, həm idarəetmənin təşkilati struktur məsələlərindən, həm təlim prosesinin keyfiyyətinin idarə olunmasından, həm də pedaqoji kadrlarla, həmçinin valideynlərlə aparılan işin forma və metodlarından bəhs olunmuşdur.

Kitabda məktəbəqədər təhsil sahəsində əldə olunmuş qabaqcıl təcrübə nümunələrinə də istinad edilmişdir. Onların mahiyyət və məzmunundan, əhəmiyyətli cəhətlərindən söhbət açılmışdır. Bu gün Azərbaycanda həyata keçirilən təhsil islahatları şəraitində məktəbəqədər təhsil üzrə tədbirlərin daha səmərəli qurulması üçün faydalı tövsiyələr təqdim olunmuşdur.

Kitab məktəbəqədər təhsil sahəsində çalışan mütəxəssislər, elmi işçilər, tələbələr, magistrlər və doktorantlar üçün nəzərdə tutulmuşdur.




**"Məktəbəqədər təhsil müəssisələri üçün təlim materiallarının təxmini planlaşdırılması". Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 120 səh.**

*Müəlliflər: İlham Cavadov, Laləzar Cəfərova, İlahə Qafarova, Kəmalə Muradova, Sədaqət Rəhimova.*
*Elmi redaktor: Ənvər Abbasov.*

"Məktəbəqədər təhsil müəssisələri üçün təlim materiallarının təxmini planlaşdırılması" adda metodik vəsait Təhsil Problemləri İnstitutunun məktəbəqədər təhsilin kurikulumu şöbəsində hazırlanmışdır. Vəsaitdə məktəbəqədər təhsilin yeni məzmununa əsasən məktəbəqədər müəssisələrdə inkişaf sahələrinə uyğun verilmiş standartlar əsasında təlimin təxmini planlaşdırılması nümunələri təqdim olunmuşdur. Eyni zamanda hər inkişaf sahəsi üzrə yaş qruplarına (orta qrup, böyük qrup, məktəbəhazırlıq qrupu) dair nümunələrin əhatə olunmasına diqqət yetirilmişdir.

Məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçilərinin fəaliyyətinə dəstək olmaq, onu istiqamətləndirmək məqsədilə vəsaitə məşğələnin planlaşdırılması nümunəsi və istifadə olunmuş ədəbiyyat siyahısı da daxil edilmişdir. Vəsait məktəbəqədər müəssisələr, həmçinin, məktəbəqədər müəssisələrə getməyən uşaqlar üçün məktəblərdə və inkişaf mərkəzlərində məktəbə hazırlığın təşkili üçün nəzərdə tutulmuşdur.




**"Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş)". Bakı. Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 96 səh.**

*Nəşrə hazırlayanlar: İlham Cavadov, Laləzar Cəfərova.*
*Elmi redaktor: Ənvər Abbasov*

Təhsil Problemləri İnstitutunun məktəbəqədər təhsilin kurikulumu şöbəsinin əməkdaşları və işçi qrupu tərəfindən hazırlanmışdır.

Dörd bölmədən ibarət olan proqramın (kurikulumun) ilkin bölməsi məktəbəqədər təhsilin məzmununa həsr olunmuşdur. Orada ilk dəfə olaraq məktəbəqədər təhsilin inkişaf sahələri üzrə təlim standartları yeni məzmun kimi təqdim olunmuşdur. Eyni zamanda təlim fəaliyyətinin keyfiyyətli qurulmasına təminat verən inteqrasiya cədvəli verilmişdir.

Proqramda (kurikulumda) təlim strategiyaları kimi onun təşkili prinsipləri, forma və üsulları, planlaşdırma nümunələri və valideynlərlə əlaqə məsələləri əhatə olunmuşdur.

Uşaq inkişafının izlənilməsi və dəyərləndirilməsi, eləcə də uşaqların yaş və inkişaf səviyyələrinin qiymətləndirilməsi məsələləri də proqramda (kurikulumda) öz əksini tapmışdır.

Proqram Azərbaycan Respublikasındakı məktəbəqədər təhsil müəssisələri, onun pedaqoji heyəti üçün nəzərdə tutulmuşdur. Ondan təhsil menecerləri və mütəxəssisləri, elmi işçilər və tələbələr də istifadə edə bilərlər.




**"Məktəbəqədər təhsilin yeni məzmununun xüsusiyyətləri". Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 66 səh.**

*Müəlliflər: İlham Cavadov, Laləzar Cəfərova, Kifayət Məmmədova.*
*Elmi redaktor: Ənvər Abbasov*

Metodik tövsiyədə ilkin olaraq məktəbəqədər təhsilin məzmununda əhatə olunmuş inkişaf sahələri, onların mahiyyət və məzmunu, əhatə dairəsi şərh olunmuşdur. Sonra bilik, bacarıq və dəyərlərin formalaşdırılması, keyfiyyətin idarə olunmasının təmin edilməsi, uşaqların inkişafının izlənilməsinə imkan yaradılması baxımından yeni məzmunun əhəmiyyətliliyi əsaslandırılmışdır.

Tövsiyədə məktəbəqədər təhsilin yeni məzmunu kimi standartların mahiyyəti və inteqrativliyindən bəhs olunmuş, onun əhatə etdiyi məsələlər, struktur xüsusiyyətləri şərh olunmuşdur. Təlim strategiyalarından yeni məzmunun komponenti kimi danışılmışdır. Kitab məktəbəqədər təhsil sahəsində çalışan mütəxəssislər, elmi işçilər, tələbələr, magistrlər və doktorantlar üçün nəzərdə tutulmuşdur.




**"Məktəbəqədər müəssisə rəhbərinin stolüstü kitabı". Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 352 səh.**

*Nəşrə hazırlayan: Laləzar Cəfərova.*

Beş bölmədən ibarət kitabın birinci bölməsinə hüquqi, normativ-hüquqi və normativ sənədlər daxil edilmişdir. İkinci bölmədə məktəbəqədər təhsil müəssisəsində olan əsas sənədlər və bu sistemdə işləyən mütəxəssislərin vəzifə funksiyaları əhatə olunmuşdur. Orada məktəbəqədər müəssisələrə lazım olan sənədlərin siyahısı verilmiş, məktəbəqədər müəssisələrdə çalışanların əmək funksiyalarından, məktəbəqədər müəssisənin digər pedaqoqları, valideynlər və ictimai təşkilatlarla qarşılıqlı əlaqələrindən bəhs edilmişdir. Üçüncü bölmədə məktəbəqədər müəssisələrdə metodik işin yeni məzmunu, açıq məşğələlərin təşkili, "Portfolio" texnologiyası, məşğələ cədvəli, pedaqoji şuraların keçirilməsi məsələlərindən bəhs olunmuşdur. Dördüncü bölməyə valideynlərlə işin forma və metodlarına aid materiallar daxil edilmiş, konkret tövsiyələr verilmişdir. Beşinci bölmədə isə məktəbəqədər təhsilin idarə olunması məsələləri əhatə olunmuşdur.

Bu gün islahatın tələblərindən irəli gələn vəzifələrin həlli istiqamətinə yönəlmiş bu kitab məktəbəqədər təhsil müəssisələrinin idarə olunmasının yeni mexanizmlərini ehtiva etməklə təhsil sahəsində çalışan mütəxəssislər, o cümlədən məktəbəqədər təhsil müəssisələrinin rəhbərləri, tərbiyəçilər və metodistlər, müvafiq ixtisas üzrə tələbələr və geniş ictimaiyyət üçün nəzərdə tutulmuşdur.




**"Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: perspektivlər və vəzifələr". Bakı, Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzinin nəşriyyatı, 2015, 304 səh.**

*Nəşrə hazırlayanlar: Ənvər Abbasov, İlham Cavadov.*
*Elmi redaktor: Qulu Novruzov.*

2012-ci ildə qəbul olunmuş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasına uyğun olaraq müasir təhsil sisteminin formalaşdırılması dövlətimizin apardığı ümumi siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. İnkişaf Konsepsiyasından irəli gələn vəzifə kimi 24 oktyabr 2013-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədini imzalamışdır.

Kitabda dövlət strategiyası sənədində qoyulan tələblər baxımından ölkəmizdə təhsilin bütün pillə və səviyyələri üzrə uğurları, eləcə də qarşılaşdığı çətinliklər təhlil olunur. Həmçinin təhsilin yeni səriştə əsaslı şəxsiyyətyönümlü məzmununun, yeni maliyyələşmə mexanizminin yaradılması, nüfuzlu təhsilverənin, nəticələrə görə cavabdeh, şəffaf və səmərəli tənzimləmə mexanizmlərinə malik yeni idarəetmə sisteminin formalaşdırılması, monitorinq və qiymətləndirmə, yeni resursların yaradılması, dərsliklərin hazırlanması kimi məsələlər əhatəli şəkildə şərh edilir.

Kitab müəllimlər, təhsil mütəxəssisləri, tələbələr üçün nəzərdə tutulmuşdur. Valideynlər və təhsillə maraqlanan hər kəs kitabdan istifadə edə bilər.




**"Modul tipli kurikulumlar və ilk peşə-ixtisas təhsili". Bakı. Mütərcim, 2015, 224 səh.**

*Müəlliflər: Rəsul Əsgərov, Malik Qurbanov*
*Elmi redaktor: Yəhya Kərimov.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 24 oktyabr 2013-cü il tarixində imzaladığı "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qeyd olunmuş keyfiyyət nəticələri və əhatəliliyinə görə dünya ölkələri arasında aparıcı mövqe tutan, səriştəli müəllim və təhsil menecerlərinə, qabaqcıl texnologiyalara əsaslanan infrastruktura malik təhsil sisteminin yaradılması üçün nəzərdə tutulmuş beş strateji istiqamət üzrə ilk peşə-ixtisas təhsilinin aktual problemləri və onların həlli yollarını özündə ehtiva edən "Modul tipli kurikulumlar və ilk peşə-ixtisas təhsili" kitabında başlıca diqqət bu təhsil pilləsində tətbiq olunması vacib olan yeni təhsil texnologiyalarına yönəlmişdir.

Kitabda dünya praktikasına geniş istinad edilmiş, müqayisə və analitik təhlillər verilmişdir. Həmçinin peşə təhsilinin inkişafı üçün çox önəmli olan və artıq pilot şəklində tətbiqinə başlanmış kompetensiyalara əsaslanan modul texnologiyaların (kurikulumların) hazırlanması və tətbiqi məsələləri kitabın əsas qayəsini təşkil edir.

Müəlliflərin xüsusi önəm verdiyi fasiləsiz təhsil, yaşlıların təhsili, mühəndis-pedaqoji ixtisaslı kadrların hazırlanması, ixtisasartırma təhsili, regionların sosial-iqtisadi inkişafına dair dövlət səviyyəsində qəbul edilmiş qərarların peşə təhsilinin inkişafı üçün yaratdığı imkanlar və s. məsələlər kitabda geniş şərhini tapmışdır.

Vəsaitdən peşə-ixtisas məktəblərinin rəhbər və mühəndis-pedaqoji işçiləri, təhsil menecerləri, ilk peşə-ixtisas təhsili üzrə mütəxəssislər, tədqiqatçılar və maraqlı olan digər şəxslər istifadə edə bilərlər.




**"Təhsilin modernləşdirilməsinin elmi-nəzəri problemləri". Bakı, Mütərcim, 2015, 452 səh.**

*Nəşrə hazırlayan: İntiqam Cəbrayılov.*
*Elmi redaktor: Qulu Novruzov*

Kitabda 9 elmi-tədqiqat işinin nəticələri əksini tapmışdır. "Təhsildə innovativ fəaliyyətin təkmilləşdirilməsi problemləri" mövzusunda tədqiqat aparmış İ.Cəbrayılov bu sahədə mövcud təcrübəni öyrənmiş, innovativ fəaliyyətin təkmilləşdirilməsi xüsusiyyətlərini tədqiq edərək onun təkmilləşdirilməsi vacibliyini əsaslandırmış və innovativ fəaliyyət modelini müəyyənləşdirmişdir.

Müəllifin digər bir tədqiqat işi pedaqoji kadr hazırlığının idarə olunmasının konseptual problemlərinə həsr olunmuşdur. Burada müəllif keyfiyyət və keyfiyyətin idarə olunması anlayışının mahiyyətini açıqlamış, problemlə bağlı bir sıra ədəbiyyatı təhlil etmiş, eləcə də məktəb təcrübəsini öyrənərək əsaslı təhlillər aparmışdır. O cümlədən, müəllif pedaqoji kadr hazırlığında keyfiyyətin idarə olunmasının prinsiplərini, yollarını, məzmunun təkmilləşdirilməsi istiqamətlərini açıqlamışdır.

"Təlimin təşkili formalarından istifadənin optimallaşdırılması təhsilin modernləşdirilməsi vasitəsi kimi" (M.İbadova), "Azərbaycan və digər ölkələrin təhsil sisteminin modernləşdirilməsinin tarixi-müqayisəli təhlili" (P.Həsənova), "Müasir biliklər cəmiyyətində təhsilin inkişafı problemləri" (C.Valehov), "Kimyanın tədrisində şagirdlərin iqtisadi biliklərinin inkişaf etdirilməsi" (Z.Muradova), "İbtidai təhsilin məzmunun təkmilləşdirilməsi problemləri" (Ş.Kazımova), "Şagirdlərin tədqiqatçılıq qabiliyyətlərinin inkişafında yeni təlim texnologiyalarından istifadə imkanları və yolları" (İ.Məmmədova), "Təhsil meneceri hazırlığının nəzəri əsasları" (M.Qurbanova) mövzularında aparılmış tədqiqatlar da monoqrafiyaya daxil edilmişdir.

Kitabda təlimin təşkili prinsipləri və ona verilən tələblər, optimallaşdırmanın səmərəli yolları, təhsildə modernləşdirmə anlayışının məzmunu, səciyyəvi xüsusiyyətləri, bəşəriyyətin "biliklər cəmiyyəti"nə və "bilik iqtisadiyyatı"na ehtiyacının təmin edilməsində təhsilin rolu, iqtisadi biliklərin həyati əhəmiyyəti, qeyri-üzvi kimyanın və üzvi kimyanın tədrisində iqtisadi biliklərin verilməsi yolları əksini tapmışdır. Bununla yanaşı ibtidai təhsilin məzmun xüsusiyyətləri, şagirdlərin tədqiqatçılıq qabiliyyətinin inkişaf etdirilməsi baxımından yeni təlim texnologiyalarından istifadə, təhsil meneceri hazırlığının prinsip, forma və metodları geniş araşdırmalar əsasında diqqətə çatdırılmışdır.